**Aygün Koçak,**
*Elmi-tədqiqat və metodik təminat şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*

# AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA ELMİ-TƏDQİQAT VƏ METODİK İŞİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

***Xülasə:*** *Məqalədə Milli Kitabxanada həyata keçirilən elmi fəaliyyət, xüsusən elmi-tədqiqat və metodik təminat işinin təşkili istiqamətləri haqqında məlumat verilmişdir.*

***Abstract:*** *The article provides information about the scientific activities carried out in the National Library, especially the directions of scientific research and methodical support work.*

***Резюме:*** *В статье представлена информация о научной деятельности Национальной Библиотеки. Особое внимание уделяется организации научно-исследовательской работы и работы по методическому обеспечению.*

***Açar sözlər:*** *Milli Kitabxana, elmi-tədqiqat, metodik təminat, elmi-biblioqrafiya, maarifçilik fəaliyyəti, elmi-nəşriyyat, elmi-təşkilati iş.*

***Key words:*** *National Library, scientific-research, methodical provision, scientific-bibliography, educational activity, scientific-publishing, scientific-organizational work.*

***Ключевые слова:*** *Национальная Библиотека, научно-исследовательская работа, методическое обеспечение, научно-библиографическая, просветительская деятельность, научно-издательская, научно-организационная работа.*

Elmi iş hər bir kitabxananın fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. O, nəinki ayrı-ayrı kitabxanaçı-praktiklərin, həmçinin bütöv kitabxana kollektivlərinin yaradıcı və peşəkar inkişafına imkan verir, fəaliyyətin strateji planlaşdırılması məsələlərini həll edir, kitabxana ictimaiyyəti arasında müsbət imicini yaradır.

Milli Kitabxanada elmi fəaliyyət aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- Elmi-tədqiqat;
- Elmi-metodik;
- Elmi-təşkilati;
- Elmi-biblioqrafiya;
- Elmi-nəşriyyat;
- Elmi-maarifçilik.

Elmi fəaliyyətin növlərindən biri olan ***biblioqrafik iş*** kitabxananın əsas prioritet istiqamətlərindən biridir. Milli, elmi-köməkçi və tövsiyə biblioqrafiyasının inkişafına istiqamətlənmiş bu fəaliyyət kitabxananın ayrı-ayrı şöbə və bölmələri tərəfindən həyata keçirilir.

Biblioqrafik informasiya fəaliyyətinin mühüm istiqamətlərindən birini biblioqrafik vəsaitlərin tərtibi və nəşrinin həyata keçirilməsi təşkil edir. Bu biblioqrafik göstəricilər müxtəlif mövzuları əhatə etməklə istifadəçilərin informasiya tələbatının ödənilməsi məqsədi ilə yaradılır. Milli Kitabxana sənədlərin biblioqrafiyalaşdırılması, ölkənin biblioqrafik vəsaitlər sisteminin formalaşması sahəsində geniş, əhatəli və səmərəli fəaliyyət göstərir.

Tarixi-xronoloji və nəşriyyat tarixi baxımından özündə çox qiymətli məlumatları əкs etdirən bu vəsaitlər ayrı-ayrı elm sahələri üzrə elmi tədqiqatların və araşdırmaların aparılmasında əvəzsiz rol oynayırlar. Digər tərəfdən müasir dövrdə oxucuların rəngarəng sorğularının ödənilməsində milli biblioqrafiya vəsaitlərinin əhəmiyyəti çox böyükdür. Məhz ölкə ərazisində dərc olunan bütün çap məhsullarını toplu şəкildə özündə əкs etdirən milli biblioqrafiya vəsaitləri oxucuların və kitabxanaçıların daha çox müraciət etdikləri məlumat nəşrlərindəndir.

Kitabxananın ***elmi-nəşriyyat fəaliyyəti***nə peşəkar metodiki və texnoloji sənədlərin, sorğu-biblioqrafik, peşəkar jurnal və ardı davam edən materialların, çap kataloqlarının, kitabxana üzrə bələdçilərin, oxucular üçün yaddaşların və prospektlərin və s. çapa hazırlanması, nəşri aiddir. Azərbaycan Milli Kitabxanasının illik nəşriyyat planı tərtib edilir, Elmi Şurada müzakirə olunduqdan sonra təsdiq olunur.

Kitabxanaların ***elmi-maarifçilik fəaliyyəti*** onun işində vacib yer tutur. Bu işin reallaşdırılması kitabxananın fonduna diqqət çəkməyə, onun elmi və digər işlərinin nəticələrini kütləvi auditoriyaya çatdırmağa imkan verir. Elmi-maarifçilik fəaliyyətinin istiqamətlərinə sərgilər (kitabxanadaxili, ölkədaxili və beynəlxalq sərgilər), ekskursiyalar, kino və videolayihələr, multimedia layihələri, kitab təqdimatları, görüşlər, seminar və konfransların təşkili və s. aiddir.

Azərbaycan Milli Kitabxanasının tipoloji funksiyalarının yerinə yetirilməsi kitabxana işinin elmi əsaslarının işlənməsi məsələlərinə xüsusi diqqət yetirməyi tələb edir. Kitabxananın elmi-tədqiqat müəssisəsi kimi inkişafına kömək məqsədilə 2014-cü ildə ***Elmi Şura*** yaradılmışdır. Bu şura mədəniyyət, elm, təhsil və maarifləndirmə sahəsində digər təşkilatlarla əməkdaşlığa, kitabxananın inkişafına köməklik göstərir. Elmi Şura təsdiqlənmiş iş planı əsasında fəaliyyət göstərir.

Azərbaycan Milli Kitabxanasının Elmi Şurası Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 183 nömrəli, 09.04.2014-cü il tarixli əmrinə uyğun

olaraq yaradılmışdır. Elmi Şura Milli Kitabxananın direktoru yanında kitabxanaşünaslıq, informatika, kitabşünaslıq, əlyazmaların və mətbu abidələrin elmi təsviri, sənədlərin konservasiyası və bərpası, kitabxanaların və arxivlərin təhlükəsizliyi sahəsində elmi fəaliyyətin əsas istiqamətlərini nəzərdən keçirən və əlaqələndirən məşvərətçi orqandır. Azərbaycan Milli Kitabxanasının Elmi Şurası kitabxananın fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirən, elmi-tədqiqat və nəşriyyat fəaliyyətinin perspektivlərini müəyyən edən, kitabxananın işinin və strukturunun dövrün tələblərinə uyğun qurulmasına kömək məqsədilə yaradılmışdır.

Elmi Şuranın əsas vəzifə və fəaliyyət istiqamətlərinə daxildir:

- Milli Kitabxananın elmi araşdırmalarının əsas istiqamətlərinin müəyyən edilməsi və əlaqələndirilməsi;
- Milli Kitabxananın əsas informasiya bazası olan fondun komplektləşdirilməsinin və tamlığının təminatına dair tövsiyələr vermək;
- Oxuculara kitabxana və informasiya-biblioqrafik xidmətin yaxşılaşdırılması, optimallaşdırılması və təkmilləşdirilməsi, günün tələbləri səviyyəsində qurulmasına dair tövsiyələr vermək;
- Milli Kitabxananın perspektiv və illik nəşriyyat planlarının, ayrı-ayrı nəşrlərin müzakirəsi, kitabxananın elmi işinin başqa elmi müəssisələrin fəaliyyəti ilə əlaqələndirilməsi, kitabxananın elmi fəaliyyətinin əsas istiqamətlərinin işlənib hazırlanması, kitabxana işinin aktual problemlərinin müzakirəsi və bu sahədə elmi işlərin nəticələrinin qiymətləndirilməsi, kitabxananın elmi əsərlərinin və əməkdaşlarının elmi işlərinin dərc olunmaq üçün tövsiyə olunması və s.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun "Kitabxana sistemi" adlı II fəslinin "Milli Kitabxana" adlı 7-ci maddəsinə əsasən, "Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat işləri üzrə aparıcı müəssisə və əlaqələndirici, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya və informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir".

Müasir şəraitdə kitabxanaların ***elmi-tədqiqat fəaliyyəti*** onların uğurlu fəaliyyətinin əsas elementlərindən birinə çevrilmişdir. Kitabxanada elmi-tədqiqatlar qlobal və konseptual, həmçinin lokal və kitabxanadaxili problemlərin həllinə, fəaliyyət qanunauyğunluqlarını aydınlaşdırmağa və gələcək inkişafını proqnozlaşdırmağa kömək edir. Heç bir kitabxana bu elmin nailiyyətlərini, kitabxana-informasiya fəaliyyətinin effektivliyini, xidmətin keyfiyyətini artıran tədqiqatların nəticələrini təcrübədə tətbiq etmədən uğurla inkişaf edə bilməz.

Kitabxananın elmi-tədqiqat fəaliyyəti dedikdə, kitabxana texnologiyasının optimallaşdırılması, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq sahəsində yeni biliklərin artırılması, kitabxana işinin nəzəri əsaslarının möhkəmləndirilməsi, əhaliyə biblioqrafik və kitabxana xidmətinin həyata keçirilməsinə istiqamətlənmiş fəaliyyət başa düşülür. Kitabxana əməkdaşlarının elmi-tədqiqatlarda iştirakı onların ənənəvi maraqlar sahəsində olmayan problemlərin rasional, səmərəli həlli üçün vacib olan yeni peşə bacarıq və vərdişləri əldə etmələrinə imkan verir.

Milli Kitabxana "elmi" fuksiyasını yerinə yetirərək 3 müddəaya əsaslanır:

- Kitabxana tədris və elmi prosesə xidmət edir;
- Bununla əlaqədar bu fəaliyyət istiqamətinə xidmət göstərən sənəd fondlarını qoruyur və tamamlayır;
- Öz şəxsi fəaliyyətinin təşkili üzrə daxili problemləri kitabxanaşünaslıq elminə əsaslanaraq həll edir.

Bu müddəaların həyata keçirilməsi əsasında elmi-tədqiqat işinin əsas istiqamətləri formalaşdırılır:

✓ İstifadəçilərin rahat informasiya mühitində öyrənilməsi;

✓ Kitab fondunun tərkibinin, onun istifadəsinin və oxucu tələbatına uyğunluğunun öyrənilməsi;

✓ İnformasiya-biblioqrafik resursların inkişafı, onların istifadəsinin effektivliyinin öyrənilməsi.

Kitabxanaşünaslıq sahəsində bir çox tədqiqatların təşkili üçün təcrübədə təşkilati sxemdən istifadə edilir:

- Elmi problemin aşkar edilməsi;
- Texniki məsələnin işlənməsi və təsdiqi;
- Elmi tədqiqatın proqramının hazırlanması;
- Elmi tədqiqatın nəticələrinin qeyd olunması, tərtibi;
- Elmi tədqiqatın nəticələrinin tətbiqi.

Tədqiqat o zaman bitmiş hesab olunur ki, onun nəticələri praktiki fəaliyyətdə uğurla istifadə olunmağa başlayır.

Tədqiqat nəticələrinin praktikaya tətbiqində müxtəlif məqsədli və oxucu yönümlü nəşr işləri mühüm rol oynayır: monoqrafiyalar, məqalələr, metodik vəsaitlər və s. (bunlar operativ nəşr olunmalıdırlar).

Elmi nailiyyətlərin kitabxana təcrübəsinə daxil olması həmçinin şifahi kommunikasiyalar vasitəsilə də baş verir. Bura aiddir: elmi konfranslar, müşavirələr, seminarlar, praktikumlar, Elmi Şuranın geniş iclasları, kitabxana işçilərinin ixtisaslarının artırılmasının müxtəlif formaları.

Milli Kitabxananın Elmi-tədqiqat və metodik təminat şöbəsi tərəfindən son 10 ildə həyata keçirilən işlərə diqqət yetirək.

Kitabxanada mütəmadi olaraq tədqiqat metodu kimi sosioloji tədqiqatlardan istifadə edilir. 2014-cü ildə "Elektron məlumat bazaları", "Region kitabxanalarında informasiya texnologiyaları infrastrukturunun təkmilləşdirilməsi", "Kitabxana oxucuların gözü ilə", "Oxuculara informasiya xidməti", "Elektron resurslar", 2015-ci ildə "Kitabxanaçının ünsiyyət mədəniyyəti" (test), "Milli Kitabxananın elektron resursları", "Milli Kitabxanamız bu gün", 2017-ci ildə "İstifadəçilərə informasiya xidməti səviyyəsi", 2018-ci ildə "Oxucuların mütaliə səviyyəsi", 2019-cu ildə "Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin informasiya tələbatçıları və onların tələbatları" adlı anket-sorğular təşkil edilmişdir.

Cari ildə "Müasir gənclərin mütaliə maraqları" adlı sosioloji tədqiqat həyata keçirilmişdir. Sorğunun keçirilməsində məqsəd gənclərin həyatında mütaliənin rol və yerini öyrənmək, ən məşhur ədəbiyyat növ və janrlarını müəyyənləşdirmək, gənclər üçün kitabxananın əhəmiyyətini təhlil etmək, onları mütaliəyə sövq edən səbəbləri və mütaliə prosesinə mane olan məsələləri tədqiq etmək olmuşdur.

Bundan əlavə, 2016-cı ildə "Respublika kitabxanalarının kadr resursları və onların yerləşdirilməsi vəziyyəti: statistik təhlil", 2020-ci ildə "Azərbaycan Milli Kitabxanasının elektron kataloqunun yaradılma strategiyasının uğurları və nöqsanları", 2021-ci ildə "Azərbaycan Milli kitabxanasının fondunda olan "Elsevir" nəşriyyatında çap olunan kitablar", ötən il "Azərbaycan Milli Kitabxanasının elektron kataloqunda retrospektiv ədəbiyyatın biblioqrafik yazılarının yaradılması və redaktəsi vəziyyəti: statistik analiz (2017-2021)" və "Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin və Bakı İctimai Cəmiyyətinin kitabxanalarından Milli Kitabxanaya 1923-cü ildə daxil olan kitablar" mövzusunda tədqiqat işləri həyata keçirilmişdir.

Hazırda Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan Milli Kitabxanasında Heydər Əliyev irsinin tədqiqi və təbliği istiqamətləri" və "Kitabxanada mövcud olan açıqcalar" mövzusunda tədqiqat işləri davam edir.

Bundan başqa, şöbə tərəfindən ötən ildən həyata keçirilən və hər il üçün nəzərdə tutulan ***"Azərbaycan kitabxanaları rəqəmlərdə"*** adlı tədqiqat layihəsi respublika üzrə kitabxana-informasiya fəaliyyətinə dair hər il statistik məlumatların toplanılması, işlənilməsi və təhlili əsasında ölkədə kitabxana işinin inkişaf istiqamətlərinin dəqiq şəkildə müəyyənləşdirilməsi, statistik ümumiləşdirmələrin aparılması, kitabxana fondlarının vəziyyəti, istifadəsi və kitabxanaların ölkənin mədəni həyatına təsirindəki rolu və yerinin dəyərləndirilməsi yolu ilə bütövlükdə kitabxana fəaliyyətinin optimallaşdırılması barədə təkliflərin hazırlanmasında mühüm rol oynayır.

Kompleks təhlil xarakteri daşıyan bu tədqiqatın həyata keçirilməsi bu gün ölkəmizdə olan kitabxanaların sayı, kitab fondları, oxucuların sayı və digər parametrlər üzrə ayrı-ayrı kitabxana sistem və şəbəkələri üzrə ümumrespublika statistikasının olmamasından irəli gəlmişdir və əsas məqsəd çox vacib olan bu işin təşkilinə yardım göstərməkdən ibarətdir.

Respublikanın ən böyük ümumi kitabxanası, mötəbər elm ocağı, zəngin kitab fonduna malik əsas milli dövlət kitabsaxlayıcısı hesab edilən Azərbaycan Milli Kitabxanasının rəsmi nəşri olan ***"Elmi Əsərlər"*** jurnalının çapa hazırlanması da şöbənin vəzifələrindən biridir. Jurnal 1980-ci ildən 1992-ci ilə kimi cəmi 6 buraxılışda (I buraxılış-1980, II-1983, III-1986, IV-1988, V-1990, VI-1992) çap olunmuşdur. I buraxılış "M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının Əsərləri", digər beş buraxılışlar isə "M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının Elmi Əsərləri" adı altında nəşr edilmişdir.

23 illik fasilədən sonra 2015-ci ildə bərpa edilmiş jurnal "Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri" adı ilə kitabxana Elmi Şurasının 15.07.2015-ci il tarixli (protokol №4) qərarı ilə çap olunur. Redaksiya heyətinin üzvləri həm ölkədə tanınmış mütəxəssislər, həm də xarici milli kitabxanaların direktorlarıdır.

2015-ci ildə 7, 2016-cı ildə 8, 2017-ci ildə 9, 2018-ci ildə isə 10-cu buraxılış çap olunmuşdur. 2017-ci il buraxılışı həmin ilin 29 sentyabrında təşkil edilmiş V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində Azərbaycan Milli Kitabxanasında baş tutmuş "Kitabxanalar üçün yeni çağırışlar, yeni ideyalar, yeni tələblər: kitab, mütaliə, innovasiyalar" adlı Beynəlxalq Elmi-praktik Konfransın, 2018-ci il buraxılışı isə həmin ilin 27-28 sentyabr tarixlərində baş tutmuş və Azərbaycan Milli Kitabxanasının yaranmasının 95 illik yubileyinə həsr olunmuş "Milli kitabxanalarda innovasiyalar – dəyişikliklərin əsası və inkişafın istiqaməti kimi" adlı Beynəlxalq Elmi-praktik Konfransın materialları əsasında hazırlanmışdır.

Müəyyən səbəblərdən və pandemiya ilə əlaqədar olaraq jurnalın nəşri dayandırılmış, 2022-ci 11-ci buraxılışı çap olunmuşdur. İldə 1 dəfə çapı nəzərdə tutulan dövri nəşri respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi-tədqiqat işinin genişlənməsinə, kitabxana işi proseslərini bir-biri ilə qarşılıqlı əlaqədə olan bir sistem kimi öyrənməyə, kitabxanaların iş təcrübəsini müasir elmi üsullarla tədqiq edib ümumiləşdirməyə səbəb olan, əks etdirdiyi maraqlı və aktual materialları ilə bu elmin inkişafına təkan verən jurnallardan biri hesab etmək olar.

Kitabxananın elmi nəşrlər sistemində "Elmi Əsərlər" mühüm yer tutur. Dövri elmi nəşrdə həm kitabxananın əməkdaşlarının, həm də digər respublika kitabxanalarının işçilərinin, bu sahədə elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan mütəxəssislərin məqalələri əhatə olunur.

Azərbaycan Milli Kitabxanasının əməkdaşlarının məqalələri təkcə kitabxananın jurnalında deyil, həmçinin bir sıra respublika və dünya ixtisas jurnallarında da dərc olunur. Bunlara Mədəniyyət.az, Kitabxana.az, Kitabxanaşünaslıq və biblioqrafiya, Kitabxanaşünaslıq və informasiya, AMEA elmi-tədqiqat institutlarının elmi əsərləri, Rusiya Kitab Palatasınınn nəşrləri olan «Библиография», «Библиография и книговедение», Avrasiya Kitabxanalar Assambleyasının (BAE) nəşri olan «Вестник Библиотечной Ассамблеи Евразии» və s. misal göstərmək olar.

Həmçinin respublika və beynəlxalq konfranslarda iştirak da elmi fəaliyyətin əsas istiqamətini təşkil edir. Hər il təşkil edilən Belarus Milli Kitabxanasının «Библиотека как феномен культуры», Moskva Dövlət Mədəniyyət İnstitutunun «Скворцовские чтения» və s. beynəlxalq konqresləri, həmçinin BDU-nun, AMEA-nın ayrı-ayrı institutlarının, digər universitetlərin təşkil etdiyi beynəlxalq və respublika konfranslarında maraqlı məruzələrlə iştirak da ənənə halını almışdır.

Eyni zamanda şöbənin əməkdaşları mütəmadi olaraq Rusiya Dövlət Kitabxanasının Elmi Tədris şöbəsinin təşkil etdiyi onlayn seminarlarda iştirak edirlər. Nümunə olaraq, “Kitabxana fondlarına kütləvi nəzarətin təşkilinin aktual aspektləri: Rusiya Dövlət Kitabxanasının təcrübəsi”, “Platformalar və perspektivlər”: Milli Biblioqrafik Resurs – kitabxanaların müasir biblioqrafik fəaliyyətinin əsasıdır”, “İnformasiya müharibələri: müasir reallıqda yeni çağırışlar, antiterror tədbirləri”, “Rəqəmsal mühitdə kitabxana ictimaiyyətinin istifadəçilərlə qarşılıqlı effektiv kommunikasiya modelləri”, “Kitab abidələrinin ekspertizası” və s. göstərmək olar.

Kitabxanada ***elmi-metodik fəaliyyət*** aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- Respublika kitabxanalarına metodiki və praktiki kömək;
- Kitabxana sisteminin analiz və proqnozlaşdırılması;
- Kitabxanalarda innovasiya proseslərinin təşkili;
- Kadr menecmenti.

Elmi-metodik fəaliyyət keçmişin ən yaxşı ənənələrini saxlamaqla inkişaf edir: kitabxanaların inkişaf perspektivlərini müəyyənləşdirir, əsas göstəricilərin təhlilini, yeni iş forma və üsullarının axtarışını, aparıcı təcrübənin təbliğini həyata keçirir.

Bu fəaliyyət növünün əsas funksiyalarına aiddir: analitik, informasiya, koordinasiya.

Elmi-metodik fəaliyyətin əsas istiqamətləri:

- Respublika MKS-nin inkişaf xüsusiyyətləri, tendensiyaları və vəziyyətinin təhlili;

- Respublika MKS-nin işinə dair kompleks məlumatların monitorinqi, öyrənilməsi və ümumiləşdirilməsi;
- Peşəkar kitabxana fəaliyyəti ilə informasiya və metodik təminat;
- Respublika MKS-nin kitabxana mütəxəssislərinə kitabxana-informasiya işinin əsas istiqamətləri üzrə metodik və konsultativ kömək;
- Əhaliyə informasiya xidmətinin həyata keçirilməsinə istiqamətlənmiş səylərin inteqrasiyası məqsədilə kitabxanaların fəaliyyətinin koordinasiya və qarşılıqlı əlaqəsi;
- Kitabxanaların təcrübəsində innovasiyaların və informasiya texnologiyalarının aşkar edilməsi, ümumiləşdirilməsi və təbliği;
- Respublikada kitabxana işinin inkişaf proqramlarının hazırlanması və reallaşdırılmasında iştirak;
- Respublika, region, kitabxanadaxili səviyyədə peşəkar tədbirlərdə iştirak;
- Peşəkar təhsil sistemində tədbirlərin təşkili və həyata keçirilməsi;
- İnformasiya-nəşriyyat fəaliyyəti: kitabxana işinin aktual məsələləri üzrə metodik materialların, tövsiyələrin hazırlanması və nəşri;
- Peşəkar dövri nəşrlərdə məqalələrin dərci.

Milli Kitabxana respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən bütün kitabxanalara, xüsusilə mərkəzləşdirilmiş və kütləvi kitabxanalara metodik mərkəz funksiyasını yerinə yetirdiyinə görə mütəmadi olaraq kitabxananın əməkdaşları şəhər və rayon kitabxanalarına ezamiyyələr təşkil edirlər.

Respublikanın Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə (MKS) zəruri metodik köməklik göstərmək məqsədilə 2013-cü ildə 25 rayon, 53 kənd kitabxana filialına, 2014-cü ildə 12 rayon, 28 kənd kitabxana filialına, 2015-ci ildə 19 rayon, 36 kənd kitabxana filialına, 2016-cı ildə 32 rayon, 64 kənd kitabxana filialına, 2017-ci ildə 18 rayon MK və 54 kitabxana filialına, 2018-ci ildə 14 rayon MKS-i və 42 kitabxana filialına, 2019-cu ildə 25 rayon MK-i və 78 kitabxana filialına metodik köməklik həyata keçirilmişdir. 2020-2021-ci illərdə pandemiya səbəbindən ezamiyyələr təxirə salınmışdır. Ötən il isə 4 rayon MK və 12 kitabxana filialına ezamiyyələr təşkil edilmişdir.

2014-2015-ci illərdə ALİSA-nın tətbiqi ilə əlaqədar olaraq mütəmadi olaraq kadrların hazırlanması məqsədilə treninqlər təşkil edilmişdir. Hazırda isə yeni KOHA AKİS-in tətbiqi ilə əlaqədar işlər gedir. Bu məqsədlə sistemin interfeysinin tərcüməsi işində şöbə də yaxından iştirak etmiş, tədrisinin təşkilinə başlanılacaqdır.

Azərbaycan Milli Kitabxanası ölkənin bütün kitabxanaları üçün metodik mərkəz funksiyasını həyata keçirərək həmçinin respublika Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün hər il çoxlu sayda metodik tövsiyələr, daycestlər hazırlayır.

2013-cü ildə “İdmanın təbliğində kitabxanaların iştirakı”, “Kitabxanalarda Heydər Əliyev irsinin və Azərbaycançılıq ideyasının təbliği”, “Milli Kitabxananın nəşrləri (2000-2012)” adlı metodik vəsaitlər çap edilmiş, rəsmi nəşr olan “İnformasiya, kitabxana və nəşriyyat işi üzrə standartlar sistemi. Biblioqrafik yazı. Biblioqrafik təsvir. Ümumi tələblər və tərtib qaydaları” adlı milli standartın hazırlanmasında yaxından iştirak edilmişdir.

2015-ci ildə “Mərkəzləşdirilmiş Kitabxana Sistemi işçilərinin vəzifə təlimatı”, “Kənd kitabxanalarının müasir dövrün tələblərinə uyğun fəaliyyətinə dair təlimat”, “Mərkəzləşdirilmiş Kitabxana Sistemi işçilərinin vəzifə təlimatı”, “2015-ci il üçün kitabxanalarda təşkil ediləcək seminar-məşğələlərin təxmini planı”, “Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği”, “Kitabxanalarda metodik fəaliyyətin təşkili” adlı metodik tövsiyələr nəşr edilmiş, “Azərbaycan Kitabxana Ensiklopediyası”nın hazırlanmasında yaxından iştirak edilmişdir.

2016-cı ildə “Avtomatlaşdırılmış Kitabxana Sistemlərində MARC 21 formatının tətbiqi qaydaları (ixtisarla)”, “Fiziki qüsurlu şəxslərə kitabxana xidmətinin təşkili”, “Kitabxanalarda biblioqrafik xidmət: ənənələr və innovasiyalar”, “Sənədlərin biblioqrafik təsvirində söz və söz birləşmələrinin ixtisarı”, “Kitabxanalarda metodik fəaliyyətin təşkili”, “Multikulturalizm Azərbaycanın həyat tərzidir”, “Açıq kitabxananın fəaliyyətinin əsas istiqamətləri” adlı metodik tövsiyələr, “Kənd kitabxanalarının müasir dövrün tələblərinə uyğun fəaliyyətinə dair təlimat”, “İnnovativ kitabxana-informasiya xidməti: sorğu kitabçası” (http://anl.az/down/innovativ.pdf) çap edilmişdir.

2017-ci ildə ““İslam həmrəyliyi ili” və kitabxanalar”, “Hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində Aprel döyüşlərinin rolu”, “Mütaliə mədəniyyəti, kitabla rəftar və kitabxanadan istifadə qaydalarına dair metodik tövsiyələr”, “Molla Pənah Vaqif – 300” adlı vəsaitlər və “Mütaliə mədəniyyəti və kitabxana xidməti (2010-2016)” adlı daycest nəşr olunmuşdur.

2018-ci ildə “Mart soyqırımı - 100”, “Azərbaycan Xalq Cümhuriyyəti - 100” adlı metodik tövsiyələr, “Naxçıvan - İslam mədəniyyətinin paytaxtıdır”, “Azərbaycan poeziyasının Mikayıl Müşfiq zirvəsi”, “Heydər Əliyev irsinin kitabxanalarda təbliği”, “Nurlu ömrün salnaməsi - Zərifə Əliyeva 95”, “Elçin. Ömrün 75-ci baharı” adlı metodik vəsaitlər çap edilmişdir.

2019-cu ildə “Cəlil Məmmədquluzadə 150”, “İmadəddin Nəsimi - 650”, “Azərbaycan şərqşünaslıq elminin əbədiyaşar siması. Aida İmanquliyeva - 80” adlı metodik vəəsaitlər nəşr edilmiş, “Narkomaniya, narkobiznes və ona qarşı mübarizədə kitabxanaların rolu (əlavə və dəyişikliklərlə)” adlı vəsait isə elektron resurs kimi Milli Kitabxananın saytında yerləşdirilmişdir.

2020-ci ildə “20 yanvar – Qan Yaddaşımız”, “Nəriman Nərimanov - 150”, “Şanlı zəfər tariximiz - 75” (Böyük Vətən Müharibəsi üzərində Qələbənin 75-ci

ildönümünə həsr olumuşdur), “Kitabxanalarda hüquqi informasiyaya olan tələbatın ödənilməsi” adlı metodik vəsaitlər, “Əbdürrəhim bəy Haqverdiyev - 150”, “Üzeyir Hacıbəyli – 135”, “Əhmədiyyə Cəbrayılov - 100” adlı daycestlər, 2021-ci ildə “Şəhidlərimizi ehtiramla yad edirik!”, “8 noyabr - Zəfər Günü”, “Mirzə İbrahimov - 110”, “Xocalı Soyqırımı - 29” adlı metodik, “ALİSA Azərbaycanın Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi” adlı təlimati metodik vəsaitlər, “Xocalı Soyqırımı - 29”, “Nizami Gəncəvi - 880”, “Aşıq Ələsgər - 200” adlı daycestlər tərtib edilərək kitabxananın saytında elektron resurs kimi istifadəyə təqdim olunmuşdur.

Ötən il “Xocalı Soyqırımı-30”, “Hüseyn Cavid-140”, “Həsən bəy Zərdabi-180”, “Mirzə Ələkbər Sabir-160”, “Xurşidbanu Natəvan-190”, “Əhməd Cavad-130” adlı daycestlər, “Zəfərimizin təntənəsi - 2022-ci il Şuşa ilidir”, “Ömər Faiq Nemanzadə-150” adlı metodik vəsaitlər saytda yerləşdirilmişdir.

Bu il isə Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar olaraq və “Heydər Əliyev İli” haqqında respublika prezidentinin sərəncamından irəli gələrək “Heydər Əliyev İli və kitabxanalar” adlı metodik vəsait tərtib edilmiş, görkəmli oftalmoloq alim Zərifə Əliyevanın yubileyi münasibətilə “Akademik Zərifə Əliyeva-100”, həmçinin “Elçin-80” adlı daycestlər hazırlanaraq elektron resurs kimi istifadəçilərin ixtiyarına verilmiş, “İlyas Əfəndiyev. Yaddaş kitabçası” çap edilmişdir.

Vəsaitlər həmçinin, Facebook sosial şəbəkəsində bölmə tərəfindən yaradılan “Milli kitabxana - metodiki məsləhətlər” qrupunda da kitabxanaçılara təqdim olunmuşdur. Qrupun yaradılmasında əsas məqsəd regionlar üzrə fəaliyyət göstərən kitabxana əməkdaşlarına müasir kitabxana işinin təşkili istiqamətində metodiki köməklik göstərməkdən ibarətdir.

Bundan başqa, “Hacı Zeynalabdin Tağıyev-200”, “Mir Möhsün Nəvvab-190”adlı daycestlər və yeni tətbiq ediləcək “Koha: Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi” adlı təlimat tərtib edilmişdir.

Şöbə həmçinin hər il çap edilən “Əlamətdar və tarixi günlər təqvimi”nin hazırlanmasında da yaxından iştirak edir.

Bu gün Milli Kitabxana respublikanın bütün kitabxanalarına, eləcə də bütün oxuculara və internet istifadəçilərinə virtual rejimdə metodik xidmət göstərir. Belə ki, kitabxananın saytında virtual ***“Metodik xidmət”*** bölməsi yaradılmış və ölkənin istənilən nöqtəsindən hər bir kitabxana işçisi müxtəlif sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayıb qısa vaxt ərzində lazım olan metodik tövsiyələri, yaxud kitabxana işinin bu və ya digər məsələlərinə dair məsləhətlər ala bilirlər.

Respublikanın digər bölgələrindəki kitabxana əməkdaşlarına onlayn metodik xidmət işini daha operativ və qrup halında həyata keçirmək məqsədilə

yaradılmış “Regionlarla iş” adlı whatsapp qrupuna regionlardan kitabxana əməkdaşları üzv olmuşlar. Hazırda müxtəlif regionlardan 247 kitabxana əməkdaşı qrupa üzvdür. Qrupda onları narahat edən mövzular ətrafında metodik tövsiyələr verilməkdədir.

Elmi işin həyata keçirilməsinin vacib məsələlərindən biri kitabxananın fəaliyyətinin aktual problemlərinə, yeniliklərə dair xüsusi seminarların, treninqlərin, master-klassların təşkilidir. Bu, kitabxananın ***elmi-təşkilati fəaliyyət***inə aiddir. Misal olaraq, ötən il iyul ayının 29-da şöbə tərəfindən Respublikanın Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin işçiləri ilə “Elektron informasiya resurslarının yaradılması: mövcud vəziyyət və problemlərin həlli yolları” mövzusunda virtual görüş keçirilmişdir. Görüşdə respublika MKS-də elektron kataloq və elektron kitabxananın formalaşdırılması xüsusiyyətləri haqqında çıxışlar olmuş, bu sahədə müasir vəziyyət təhlil edilmiş, tətbiq prosesində meydana çıxan problemlər, keyfiyyətin artırılması yolları və s. istiqamətlərdə müzakirələr aparılmış, aktual suallar cavablandırılmış və funksionallığın artırılması məqsədilə lazımi tövsiyələr verilmişdir. Görüşdə Gəncə, Goranboy, Şəki, Quba, Şabran, Nefçala, İsmayıllı, Siyəzən, Samux, Sumqayıt, Qəbələ, İmişli, Oğuz, Ağdaş və digər şəhər və rayon MKS-nin əməkdaşları iştirak etmişlər.

2023-cü ildə, Milli Kitabxananın 100 illik yubileyi ərəfəsində Elmi-tədqiqat və metodik təminat şöbəsinin qarşısında da xeyli vəzifələr durur. Ümidvarıq ki, bu vəzifələrin öhdəsindən layiqincə gələcək və bundan sonra da kitabxana ictimaiyyəti üçün əhəmiyyətli vəsaitlərin nəşr edilməsində, region kitabxanaları üçün metodik təminat sisteminin güclənməsində, kitabxanaçı kadrların səriştəsinin artırılmasında, kitabxana işinin ümumi inkişafına faydalı olacaq tədqiqatların həyata keçirilməsində bütün imkanlarımızdan müvəffəqiyyətlə istifadə edəcəyik.

## ƏDƏBİYYAT

**1.** Xələfov, A.A. Kitabxanaşünaslığa giriş: Dərslik.- B.: Bakı Universiteti Nəşriyyatı, 2001.- 400 s.

**2.** “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.- 1999, 14 mart.- S.3.